*© "Metafizika" Journal* *p-ISSN 2616-6879*
*Vol 6, issue 1, serial 21, 2023. pp.81-90* *e-ISSN 2617-751X*

**UOT:** 069.7
**KBT:** 63.2(2) L 6
**MJ №** 155

# Tarixi-dini abidələrin qorunmasında və bərpasında Heydər Əliyevin rolu

**Şahlar Şərifov***

**Abstrakt.** Ulu öndərin uğurlu dini siyasəti nəticəsində qorunub saxlanılan tolerantlıq ənənələri, bərpa olunmuş tarixi, dini, memarlıq abidələri, xalqımızın zəngin incəsənəti və ədəbiyyatı dünya mədəniyyətinə verdiyimiz ən böyük töhfə, gələcək nəsillər üçün ən qiymətli irsimizdir. Şübhə yoxdur ki, Azərbaycan xalqı bu irsin sahibi, Heydər Əliyev onun hamisi, Heydər Əliyev Fondu isə himayədarı və təbliğatçısı kimi tarixdə qalacaq.

Son illər bir çox dini abidələr, o cümlədən Əzizbəyov rayonunun Binə qəsəbəsindəki Möhsün Səlim və İmam Rza məscidləri, Gəncə şəhərindəki Şah Abbas və Həzrət Zeynəb məscidləri, Buzovna qəsəbəsindəki Cümə məscidi, Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahı təmir və bərpa edilib.

**Açar sözlər:** Ulu öndər, Heydər Əliyev, Azərbaycan, tarixi-dini abidələr, Təzəpir məscidi, Bibiheybət məscidi, Əshabi-Kəhf

## 1.Giriş

XIX əsrin başlanğıcında rus istilası Azərbaycanı iki yerə parçalayandan sonra milli mədəniyyətimizə, elm və maarifimizə ciddi zərbə vuruldu. Çarizmin apardığı "Parçala və hökm sür!" siyasəti nəticəsində Azərbaycanın işğal olunmuş şimal hissəsində maddi dayaqlardan məhrum edilmiş ənənəvi elm və təhsil sürətlə geriləməyə başladı. Azərbaycanlıların yeni nəsli tarixi-mədəni və dini köklərdən demək olar ki, qoparıldı. Bununla əlaqədar olaraq, çarizmin yürütdüyü siyasətə boyun əyməyənlər, bu rejimi qəbul etməyənlər savadsız və inkişaf etməkdən geri qalmış şəxsləri Azərbaycana göndərirdilər. Eyni zamanda bu dövrdə Azərbaycanın özü də

* İlahiyyat üzrə fəlsəfə doktoru, dosent,
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın VII-XIV əsrlər tarixi" şöbəsinin aparıcı elmi işçisi; Bakı, Azərbaycan
E-mail: shahlarsharif@gmail.com
https://orcid.org/0000-0002-0395-5174

**Məqaləyə istinad:** Şərifov, Ş. [2023] Tarixi-dini abidələrin qorunmasında və bərpasında Heydər Əliyevin rolu. *"Metafizika" jurnalı, 6*(1), səh.81-90.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 05.01.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 15.02.2023*
*Çapa qəbul edilmişdir: 13.03.2023*

çarizmə tabe edilən ərazilər sırasında geridə qalmış ərazilərdən biri hesab olunurdu. Bunun nəticəsində azərbaycanlılar arasında artıq rus imperiyasına qulluq edən yeni bir zümrə meydana gəlmişdi və onlar dünya elminə korifeylər bəxş etmiş, Azərbaycan elmini və maarifini artıq bəyənmir, onun imperiyanın apardığı siyasət nəticəsində süni təsirlə çürüdüldüyünü başa düşmədən, tədrisin metodikasını, pedaqogika elmini müasirləşdirmək əvəzinə, ümumiyyətlə "üsuli-qədim" məktəbini ləğv etməyə, min illik bir dövrdə Azərbaycan mədəniyyətinə xidmət etmiş və artıq milliləşmiş əlifbanı dəyişdirməyə, xalq arasında "uşqol" adlandırılan "üsuli-cədid" məktəblərini genişləndirməyə çağırırdılar. Belə bir dalğanın qarşısında dayanmaq üçün "üsuli-qədim" adlandırılan məktəblərin yenidən qurulması vacib idi. Lakin Azərbaycanda bu işi görə biləcək qüvvə qalmamışdı. Köhnə məktəb və mədrəsələrdə dərs deyən molla və müəllimlərin elmi-pedaqoji hazırlığı zamanın tələblərinə cavab vermirdi. Necə deyərlər, çarizm istədiyinə artıq nail ola bilmişdi [10, s.87-99].

Bu dövrü səciyyələndirən ümummilli lider Heydər Əliyev 1998-ci il dekabrın 9-da Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" beynəlxalq simpoziumundakı çıxışında xalqımızın müstəqillik yoluna qədəm qoyması nəticəsində milli-mənəvi, dini dəyərlər qovuşmasında nailiyyətlər qazanmasını vurğulayaraq qeyd etmişdi ki, *"Sovetlət İttifaqı zamanı müxtəlif xalqlara müxtəlif cür münasibət qərarlaşmışdı. Bunu ondan görmək olardı ki, həmin dövrdə xristian dininə məxsus kitabların rus dilində nəşr olunması qadağan deyildi, hətta Qurani-Kərim də rus dilinə tərcümə edilərək nəşr olunmuşdu. Lakin Qurani-Kərimdən istifadə etməyi azərbaycanlılara qadağan edirdilər. Hesab edirdilər ki, Quran rus dilinə tərcümə olunubdur və guya xristianlar tərəfindən İslam dinini öyrənmək üçün lazımdır. Amma Qurani-Kərim Azərbaycan dilinə tərcümə olunsa, bu azərbaycanlıların İslam dininə meylini artıracaqdır. Əsas narahatçılıq yaradan məsələlərdən biri də bunlar idi. Onu da qeyd etmək istərdik ki, bu dövrdə xristian dininə məxsus kitabların rus dilində nəşr olunması qadağan deyildi. Elə bunun özü də Sovetlər İttifaqı zamanı müxtəlif xalqlara fərqli münasibət olduğunu göstərirdi"* [6, s.231-246; 9, s.4].

Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra da bu kimi məsələlərə diqqət yetirən Heydər Əliyev dini kitabların nəşr edilməsi ilə yanaşı, tarixi-dini abidələrin də yenidən təmir və bərpa işləri ilə yaxından maraqlanmağa başladı.

Heydər Əliyev respublikada mövcud olan tarixi-dini abidələrin bərpasına müvəqqəti iş kimi yox, uzunmüddətli din siyasətinin tərkib hissəsi kimi yanaşırdı. O, bu işi dövlətin dinə hörməti və xalqın milli-mənəvi dəyərlərə

qayıdışının göstəricisi kimi dəyərləndirirdi. Heydər Əliyev yürütdüyü bu siyasətlə bizə deməyə çalışmışdır ki, tarixi-dini abidələrin təmiri və bərpası istər Azərbaycan dövlətinin, istərsə də bu dövlətdə yaşayan hər bir azərbaycanlının apardığı dini siyasətin tərkib hissələrindən biri olmalı və heç bir vaxt müvəqqəti xarakterə çevrilməməlidir.

Müstəqilliyimizin ilk dövrlərində mənfur, vəhşi və özü kimi yer üzündə xain millət olmayan qondarma Ermənistan Respublikası ilə müharibə aparıldığı üçün dövlət büdcəsinin böyük bir hissəsi hərbi xərclərə sərf olunur, bu da əhalinin yaşayış səviyyəsində özünü açıq-aşkar büruzə verirdi. Belə bir şəraitdə dövlət tərəfindən tarixi-dini abidələrin bərpası, müdəqqəs yerlərin, ziyarətgahların təmiri mümkünsüz idi. Əhalinin iqtisadi vəziyyəti bu tipli abidələrin bərpası, yeni məscid və ibadət yerlərinin tikintisi üçün kifayət deyildi. İllər sonra həmin dövrə nəzər saldıqda insan inana bilmir ki, sosial-iqtisadi problemlərin məngənəsində olmasına baxmayaraq Azərbaycan xalqı yeni məscidlər tikib, köhnələrini isə bərpa edərək xalqın istifadəsinə verib. Həmin dövrü xarakterizə edən ulu öndər Heydər Əliyev belə deyirdi:

> *“Azərbaycan dövləti müstəqilliyini əldə edən zaman ölkəmizdə cəmi 18 məscid var idi. Azərbaycanın dövlət müstəqilliyinin hələ yeddi yaşı tamam olmayıbdır. Yəni tarixi nöqteyi-nəzərdən biz dövlət müstəqilliyi, milli-azadlıq şəraitində kiçik bir zaman yaşamışıq. Azərbaycan xalqı öz milli azadlığını qazanandan sonra, öz quruluşunu öz istədiyi kimi qurandan sonra qısa bir zamanda indi Azərbaycanda mindən artıq məscid var. Demək, insanların hamısının qəlbində məscid intizarı, məscid arzusu,-məscid Allah evidir, məscid dini məbəddir, dini mərkəzdir,-fikirləri o qədər yaşayıbdır ki, qısa bir zamanda heç bir hökumətin, dövlətin köməyi, vəsaiti olmadan məscidlər tikilib, yaradılıbdır”* [6, s.212].

Heydər Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk vaxtlardan tarixi-dini abidələrin bərpası və tikintisini öz nəzarətinə götürmüş, bu prosesin xalqın istəyinə uyğun aparılması üçün dövlət dəstəyini əsirgəməmişdir. İlk vaxtlar tarixi-dini abidələrin bərpası üçün dövlət imkanlarının mövcud olmasına baxmayaraq, Heydər Əliyev Azərbaycanın gələcək inkişafının fonunda Sovet hakimiyyətinin amansız münasibəti nəticəsində dağılmış məscid və ziyarətgahların bərpası üçün planlar düşünür, fikirlərini xalqa açıq söyləyirdi. Zaman keçdikcə Heydər Əliyevin arzuları həyata keçərək reallaşmağa başladı. Müstəqillik əldə edildikdən sonra güclənən Azərbaycan dövləti, ölkədə mövcud olan tarixi-dini abidələrin təmir və bərpasına sərf olunacaq qədər vəsait ayırmağa başladı. Qarşıya qoyulan işlərin planlı şəkildə həyata keçirilməsi üçün təmir-bərpa işlərinə 1933-cü ildə dağıdılmış Bibiheybət məscidindən başlanılmışdı.

Bunu nəzərə alan Heydər Əliyev belə deyirdi:
*“Dini ocaqların yaranması, onların daha da abadlaşdırılması işini, lazımi tədbirlərin görülməsini əhəmiyyətli hesab edirik. Çoxunu xalq özü, xeyriyyəçi insanlar edir. Amma dövlət də bir tərəfdən buna dəstək verir, digər tərəfdən də imkanı dairəsində nə lazımdır edir. Məsələn, Bibiheybət məscidinin bərpası bizim üçün tarixi əhəmiyyətli bir hadisədir. Çünki Bibiheybət ziyarətgahının Azərbaycanın tarixində hansı yer tutduğunu siz yaxşı bilirsiniz. Şübhəsiz ki, vaxtı ilə təkcə xalqımıza qarşı yox, bütün İslam dünyasına qarşı böyük bir cinayət edilib. O məscid partladılıb, dağıdılıb və ziyarətgah pozulubdur. Amma buna baxmayaraq, insanlar Bibiheybət ziyarətgahını heç bir vaxt unutmayıblar. Doğrudur, qadağan olunduğuna görə əvvəlki kimi ziyarətlər olunmayıb, ancaq o, müqəddəs bir yer kimi yaşayıb və yaşayacaqdır. İndi isə bizim vəzifəmiz Bibiheybət məscidini bərpa etmək, daha da inkişaf etdirmək və oranı - əsrlərdən bəri yaşamış ziyarətgahı yenidən əvvəlki kimi, bəlkə, ondan da yuxarı səviyyəyə qaldırmaqdır ki, təkcə Azərbaycan xalqı, müsəlmanları üçün yox, həqiqətən, bütün dünya müsəlmanları üçün ziyarətgah olsun. Ona görə də, məscidin bərpası üçün mənim dövlət tərəfindən vəsait ayırmağım təsadüfi bir iş deyildir”* [6, s.182].

İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s.a.s) nəvələrindən olan İmam Musa əl-Kazimin (ə) qızı, Həzrət Hökumənin qəbri yerləşən Bibiheybət ziyarətgahında bərpa işlərinin aparılmasına və məscid tikintisinə ölkə prezidenti Heydər Əliyev hələ 1994-cü ildə buranı ziyarət edən zaman qərar vermişdi. Sonrakı dövrlərdə dəfələrlə Bibiheybət ziyarətgahında olan Heydər Əliyev kompleksin tikintisi prosesinə şəxsən nəzarət etmişdir. Bibiheybət kompleksinin tikilib başa çatdırılmasında Heydər Əliyev həm Azərbaycan Prezidenti, həm də bir müsəlman kimi əlindən gələni əsirgəməmiş və bununla özündən sonrakı nəsillərə də bir örnək olmuşdur.

Prezident olduğu müddətdə xalqla birlikdə olmağa üstünlük verən Heydər Əliyev, məscid və ziyarətgahları tez-tez ziyarət edirdi. Bu baxımdan “Təzəpir”, “Bibiheybət” və “Mir Mövsüm ağa” kimi müqəddəs məkanlarda dəfələrlə olmuş və dindarlarla yanaşı, digər şəxsləri də sevindirmişdir. Hətta adlarını qeyd etdiyimiz müqəddəs məkanlarda aparılan təmir-bərpa işlərinə nəzarət edərək, öz məsləhət və göstərişlərini verməyi də əsirgəməmişdir.

Azərbaycanın bütün bölgələrində tarixi-dini abidələrin bərpasında yaxından iştirak edən Heydər Əliyev, Naxçıvandakı Əshabi-Kəhf mağarasının da yenidən bərpa edilərək insanların istifadəsinə verilməsində öz köməyini əsirgəməmişdir. Bu mağaranı ziyarət etmək üçün dünyanın bir çox ölkələrindən Azərbaycana təşrif buyuran insanlar vardır. Bununla əlaqədar

olaraq Heydər Əliyevin tapşırığı və dəstəyi ilə Əshabi-Kəhfdə abadlıq işləri aparılmış, zəvvarların rahatlığı üçün şərait yaradılmış, ibadət etmələri üçün məscid tikilmiş və mağaranın girişinə kitabə də qoyulmuşdur [9, s.154-155].

Bir prezident kimi Heydər Əliyevin müxtəlif tədbir və mərasimlərdəki çıxışlarına nəzər saldıqda məlum olur ki, əslində mənəvi dəyərlərin insanın qəlbində var olduğu, bunun sadəcə rejimlərdən qaynaqlanan çətinliklər səbəbilə yaşadılmasının bəzən imkansız olduğunu anlamaq mümkündür. Belə ki, 1994-cü ildə Mədinə şəhərində olan Heydər Əliyev Peyğəmbər məscidini ziyarət edərkən burada olan şərəf kitabına ürək sözlərini yazmışdır. Üç il sonra “Bibiheybət” məscidini zəyarət etməyə gələn ulu öndər şərəf kitabında yazdığı ürək sözlərini ətrafdakı insanlara açıqlayaraq belə demişdir:

*“Allah şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Allahın böyüklüyünü bir daha dərk etdim!”* [6, s.44].

Əlbəttə, Azərbaycan xalqının da, keçmiş Sovetlər İttifaqı tərkibində yaşayan digər müsəlman xalqların da öz dinindən təcrid olunmasının birbaşa səbəbkarı sovet siyasi-ideoloji sistemi idi və bu mülahizə Heydər Əliyevin təhlillərində həmişə ön plana çəkilirdi. Lakin O, bu hadisələri eyni zamanda, Allahın sınağı kimi mənalandırmaqla daha geniş dini-fəlsəfi düşüncələr müstəvisinə çıxararaq deyirdi:

*“Azərbaycan xalqı uzun müddət öz dinindən məhrum edilmişdir. Bu, əlbəttə, bizim üçün acınacaqlı bir haldır. Ancaq bu, nə sizdən, nə də məndən asılı idi. Ola bilər ki, bu, Allahın işidir. Və bu da bir imtahandır ki, görsünlər insan öz dinindən məhrum olandan sonra nə bəlalara düşür və öz dininə qayıdandan sonra nə qədər xoşbəxtliklər əldə edir”* [7, s.500; 3, s.10].

Ulu öndər Heydər Əliyev tarixi-dini abidələrimizin bərpası işini dövlət himayəsinə almaqla onlara bu günün həqiqətini, gələcəyin tarixinə çevirmə hüququ qazandırırdı. Onilliklər, yüzilliklər, minilliklər keçəcək, lakin hər dəfə tarixi-dini abidələrimiz dövlətimiz tərəfindən bərpa olunarkən bu, Heydər Əliyev siyasətinin davamı kimi qiymətləndiriləcək və müdrik, uzaqgörən şəxsiyyətin sözləri xatırlanacaqdır:

*“Əmin ola bilərsiniz ki, bütün imkanlardan istifadə ediləcək, nəinki bu müqəddəs yeri, həm də Azərbaycan xalqının tarixini, milli, dini ənənələrini əks etdirən bütün abidələr, ocaqlar, müqəddəs yerlər bərpa olunacaqdır. Bunu biz sizinlə birlikdə edəcəyik. Bizim görə bilmədiyimiz işləri gələcək nəsillər, davamçılarımız yerinə yetirəcəklər. Buna heç şübhəniz olmasın. Əmin olun ki, biz birləşib müstəqilliyimizi, torpaqlarımızı qoruyacaq, həm*

*də xalqımızın yaratdığı tarixi abidələri, dini abidələri yaşadacağıq"* [6, s.39-40].

Ulu öndər Heydər Əliyevin böyüklüyü həm də ondadır ki, tarixi-dini abidələrin bərpası dedikdə o, yalnız İslam dini ilə bağlı olan abidələri deyil, digər dinlərə, istər yəhudilərə, istərsə də xristianlara məxsus tarixi-dini abidələrin, sinaqoq və kilsələrin bərpasına da lazimi köməyini əsirgəməmişdir. Heydər Əliyevin göstəriş və məsləhətləri ilə Azərbaycanda kilsə və sinaqoqlar təmir edilmiş, yeniləri bina edilmişdir ki, bu işdə də o, öz maddi dəstəyini əsirgəməmişdir. Bakıda Rus Provaslav Baş Kafedral Kilsəsinin bərpası və onun açılış mərasimində Heydər Əliyevin iştirakı təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da əks-səda doğurmuşdur [1]. Çünki bu, bütün dünya provaslavlarının həyatında əlamətdar hadisə idi. Ölkəmizdə katolik xristianlarının sayının az olmasına baxmayaraq, 1999-cu ildə katolik icması da dövlət qeydiyyatına alınmış, əvvəllər dini ayinləri evlərdə icra edən icma üzvlərinə lazımi şərait yaradılmışdır. 2000-ci ildə ibadətlərin yerinə yetirilməsi məqsədilə xüsusi bina alınaraq kilsəyə çevrilmiş, daha sonra Azərbaycan ilə Vatikan arasında Bakıda Roma-Katolik Kilsəsinin inşa olunması barədə razılıq əldə olunmuşdur. Bütün bunlar isə təbii ki, ulu öndər Heydər Əliyevin şəxsi nəzarəti və dəstəyi ilə həyata keçirilmişdir [8, s.71].

Heydər Əliyevin dəstəyi ilə xristian məbədlərinə paralel olaraq yəhudi sinaqoqları da bərpa olunmuş, yeniləri inşa edilmişdir. 2003-cü ildə Bakıda yəhudi sinaqoqunun dindarların istifadəsinə verilməsi dünya yəhudilərinin tarixinə əlamətdar hadisə kimi daxil olmuş, onların diqqətini ölkəmizə yönəlmişdir. Sinaqoqun tikintisində xaricdə fəaliyyət göstərən yəhudi təşkilatları ilə yanaşı, Qafqaz Müsəlmanları İdarəsi, Rus-Provaslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası maliyyə dəstəkləri ilə yaxından iştirak etmişdir. Müsəlmanlarla xristianların yəhudi sinaqoqunun tikintisində birgə iştirakı nadir faktlardandır. Bu, həm Azərbaycan xalqının, həm də Heydər Əliyevin din siyasətinin nəticəsi, həm də gələcəyə ünvanlanmış böyük bir tərbiyəvi işin göstəricisidir [2, s.71; 8, s.69].

Ulu öndər Heydər Əliyevi narahat edən məsələlərdən biri də mənfur Ermənistanın işğal etdiyi ərazilərdə minlərlə tarixi-dini abidələrimizin taleyi idi. Çünki bu işğal nəticəsində erməni vandalları tərəfindən bir çox məscid və ziyarətgahlarımız viran edilmişdir. Eyni zamanda fərqli zamanlarda bəzi alban məbədləri də ermənilər tərəfindən qriqoryanlaşdırılmışdır. Bu baxımdan Heydər Əliyevin dəstəyi ilə Şəki şəhərinin Kiş kəndində və Qəbələ rayonunun Nic qəsəbələrindəki alban kilsələrinin təmir olunması, Alban-udin Xristian dini icmasının yaradılması təsadüfi deyildir [5, s.152].

Ümummilli lider Heydər Əliyevin apardığı uğurlu din siyasəti nəticəsində qorunub saxlanılmış tolerantlıq mühiti və bərpa edilmiş tarixi-dini abidələrimiz bizim dünya mədəniyyətinə ən böyük töhfəmiz, gələcək nəsillər üçün isə ən dəyərli mirasımızdır.

Dahi lider Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərinin inzibatçılığa yol vermədən məqbul beynəlxalq standartlara müvafiq şəkildə qurulmasını təmin edib, dövlətin strateji xəttinə əsasən tənzimləyib. Məhz Heydər Əliyevin səyləri nəticəsində cəmiyyətdə müxtəlif dinlərin nümayəndələri arasında qarşılıqlı inam formalaşdırılıb [10, s.87-99].

Müasir dövrdə Azərbaycanda islamşünaslığın geniş və səmərəli şəkildə öyrənilməsinə şərait əlbəttə ki, ümummilli lider Heydər Əliyev tərəfindən yaradılmışdır [10, s.87-99]. O, 1998-ci il dekabr ayının 9-11-də Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumundakı dərin məzmunlu məruzəsində belə demişdir:

> *"...Azərbaycanda islamşünaslıq sahəsi XX əsrdə demək olar ki, tamamilə itirilmişdi. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycan Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi-tədqiqat institutları, bəlkə də bu sahə üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun"* [6, s.231-246].

Gənc nəslin tərbiyəsində dini maarifin əhəmiyyətindən danışan ümummilli lider Heydər Əliyev belə demişdir:

> *"İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı istifadə etməli və xüsusən, cəmiyyətdə, davranışda İslam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir... Gənclərimizin İslam dinini mənimsəmələri üçün tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhvali-ruhiyyəsi aşılamaq istəyirlər"* [4, s.7; 10, s.87-99].

Beləliklə, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkə prezidenti seçilən Heydər Əliyev, sovetlər dövründə fəaliyyəti dayandırılmış məscidlərin, tarixi-dini abidələrin təmir və bərpasına xüsusi diqqət ayırmışdır. Məhz Heydər Əliyevin 1994-cü ildə imzaladığı sərəncama əsasən, Bibiheybət məscidi yenidən bərpa edilərək 1998-ci ildə istifadəyə verilmişdir. Əsası Heydər Əliyev tərəfindən qoyulan bu tarixi ənənə ondan sonra da layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən inamlı şəkildə davam etdirilir. Əlbəttə ki, bu işdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın

da əməyi böyükdür. Mehriban xanım Əliyevanın göstərişləri və Heydər Əliyev Fondunun maddi dəstəyi ilə Gəncədəki İmamzadə ziyarətgahı, Təzəpir məscidi, İçərişəhər Cümə məscidi, Əjdərbəy məscidi, Həzrət Məhəmməd məscidi, Şamaxı Cümə məscidi yenidən təmir edilmişdir. 2013-2015-ci illər tarixində isə Prezident İlham Əliyevin tapşırığı, Mehriban Əliyevanın göstərişləri və rəhbərlik etdiyi fondun maddi dəstəyi ilə Heydər Məscidi tikilərək əhalinin istifadəsinə verilmişdir.

**Nəticə**

Nəticə olaraq bunu deyə bilərik ki, ölkəmizdə Heydər Əliyevin mənəvi və milli dəyərlərimizə göstərmiş olduğu qayğı və diqqət bu gün də layiqli bir şəkildə ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir və bunun sayəsində “Mən azərbaycanlıyam” deyən hər bir kəs, bu dəyərləri özü üçün düstur qəbul edərək gələcəyə daha da inamla baxır və baxacaqdır.

## ƏDƏBİYYAT


1. “Azərbaycan” qəzeti, 25 mart 2003-cü il.
2. *Bibiheybət ziyarətgahı.* Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəşri. Buraxılışına məsul: H.Orucov. Bakı: Əbilov, Zeynalov və oğulları, 2008, 144 s.
3. *Elmi məcmuə*. Bakı İslam Universiteti, № 07-2012.
4. *Gənclərin birinci respublika toplantısının materialları*, Bakı, 1996.
5. *Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər*. Bakı: Əbilov, Zeynalov və oğulları, 2007.
6. *Heydər Əliyev siyasəti, Tolerantlıq*. “Elm və təhsil”, Bakı-2015.
7. *Qətiyyətin təntənəsi (sənədli xronika).* Bakı: “Azərnəşr”, 1995.
8. Məmmədov, C. (2018). *Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik.* Bakı.
9. *Naxçıvan Ensiklopediyası.* AMEA Bakı: 2002.
10. Şərifov, Ş. Ş. (2009). *Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi və onun “Kitabul-Bəyan fi Təfsiril-Quran” əsərinin Avtoreferatı*, Bakı.
11. Şərifov, Ş. Ş. (2018). Azərbaycanda dinin inkişafında ulu öndər Heydər Əliyevin rolu, BİU, *Elmi məcmuə* № 13.


## Роль Гайдера Алиева в защите и восстановлении исторических и религиозных памятников

**Шахлар Шарифов***

* Доктор философии по теологии, доцент,
Ведущий научный сотрудник отдела “Истории Азербайджана VII-XIV вв.” Института Истории им.А.А.Бакиханова НАНА; Баку, Азербайджан
E-mail: shahlarsharif@gmail.com

**Абстракт.** В результате успешной религиозной политики Великого Вождя сохраненные традиции толерантности, восстановленные историко-религиозные, архитектурные памятники, богатое искусство и литература нашего народа являются нашим величайшим вкладом в мировую культуру и нашим ценнейшим наследием для будущих поколений. Нет сомнения, что азербайджанский народ останется в истории как обладатель этого наследия, Гейдар Алиев как его защитник, а Фонд Гейдара Алиева как его покровитель и покровитель.

За последние годы были отремонтированы и восстановлены многие религиозные памятники, в том числе мечети Мохсун Салим и Имам Реза в поселке Бина Азизбековского района, мечети Шах Аббас и Хазрат Зейнаб в городе Гянджа, мечеть Джума в поселке Бузовна, усыпальница Пир Хасан в поселке Мардакян.

**Ключевые слова:** Великий лидер, Гейдар Алиев, Азербайджан, исторические и религиозные памятники, Мечеть Тезепир, Мечеть Биби-Эйбат, Асхаб-Уль-Кахф

## Hayder Aliyev's role in the protection and restoration of hıstorical and religious monuments

**Shahlar Sharifov***

**Abstract.** As a result of the successful religious policy of the Great Leader, the preserved traditions of tolerance, restored historical-religious, architectural monuments, rich art and literature of our people are our greatest contribution to world culture and our most valuable heritage for future generations. There is no doubt that the Azerbaijani people will remain in

https://orcid.org/0000-0002-0395-5174
**Цитировать статью:** Шарифов, Ш. [2023]. Роль Гайдера Алиева в защите и восстановлении исторических и религиозных памятников. *Журнал «Metafizika», 6*(1), с.81-90.

***История статьи:***
*Статья поступила в редакцию: 05.01.2023*
*Отправлена на доработку: 15.02.2023*
*Принята для печати: 13.03.2023*

* Doctor of Philosophy in Theology Associate Professor,
Leading researcher of the department “History of Azerbaijan in the 7th-14th centuries.” Institute of History named after A.A. Bakikhanov of ANAS; Baku Azerbaijan
E-mail: shahlarsharif@gmail.com
https://orcid.org/0000-0002-0395-5174
**To cite this article:** Sharifov, Sh. [2023]. Hayder Aliyev's role in the protection and restoration of hıstorical and religious monuments. *“Metafizika” journal, 6*(1), pp.81-90.

***Article history:***
*Received: 25.01.2023*
*Accepted: 13.03.2023*

history as the owner of this heritage, Heydar Aliyev as its protector, and the Heydar Aliyev Foundation as its patron and promoter.

In recent years, many religious monuments, including Mohsun Salim and Imam Reza mosques in Bina settlement of Azizbayov district, Shah Abbas and Hazrat Zeynab mosques in Ganja city, Juma mosque in Buzovna settlement, Pir Hasan shrine in Mardakan settlement, were repaired and restored.

**Keywords**: The Great Leader, Heydar Aliyev, Azerbaijan, historical and religious monuments, the Taza Pir Mosque, The Bibi-Heybat Mosque, Ashabi-Kahf

## REFERENCES

1. *“Azerbaijan” newspaper*, March 25, 2003.
2. *Bibiheybat thiyaretgahi*. Publication of the State Committee for Work with Religious Institutions (Responsible for the release: H. Orujov). Baku: Abilov, Zeynalov and Sons, 2008, 144 p.
3. *Scientific collection*. Baku Islamic University, No. 07-2012.
4. *Materials of the first republican youth meeting*, Baku, 1996.
5. *Heydar Aliyev and religious policy in Azerbaijan: realities and perspectives*. Baku: Abilov, Zeynalov and sons, 2007.
6. *Heydar Aliyev policy, Tolerance*. “Science and education”, Baku-2015.
7. *Celebration of determination (documentary chronicle).* Baku: “Azernashr”, 1995.
8. Mammadov, C. (2018). *State-religion relations in Azerbaijan: history and modernity*. Baku.
9. *Nakhchivan Encyclopedia*. ANAS Baku: 2002.
10. Sharifov, Sh. Sh. (2009). *Sheikhulislam Muhammedhasan Movlazade Shekavi and his autobiography of “Kitabul-Bayan fi Tafsiril-Qur’an”*. Baku.
11. Sharifov, Sh. Sh. (2018). The role of great leader Heydar Aliyev in the development of religion in Azerbaijan. BIU, *Scientific collection No. 13.*